# Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin “kütləvi çıxarış” kampaniyası Qəbələdə

Əmlak Məsələləri Dövlət Komitəsi “kütləvi çıxarış” kampaniyasının növbəti səfəri Qəbələ rayonuna olmuşdur. Səfər çərçivəsində rayonun 200-ə yaxın vətəndaşın əvvəllər yaranmış mülkiyyət hüquqlarını təsdiq edən sənədləri dövlət reyestrindən çıxarışlarla əvəz edilmişdir.



Məlum olduğu kimi Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2014-cü il tarixli Fərmanının icrası məqsədilə komitə noyabr ayından etibarən vətəndaşlara əvvəllər verilmiş mülkiyyət barədə aktlar, şəhadətnamələr və qeydiyyat vəsiqələrinin kütləvi şəkildə çıxarışlarla əvəz olunması kampaniyasına start verib. Bu kampaniya indiyədək Qəbələ rayonundan əlavə Saatlı, Şəmkir, Abşeron və Cəlilabad rayonlarının vətəndaşlarına da xidmət göstərib. Ümumilikdə, 1000-ə yaxın vətəndaş kampaniyadan faydalanıb. Kampaniya müddətində dövlət reyestrindən çıxarışlar vətəndaşlara mobil ofis xidmətləri vasitəsilə birbaşa olaraq yerlərdə təqdim olunub. Mobil ofislər vasitəsilə çıxarışların verilməsində məqsəd vətəndaşların rahatlığını təmin etmək və vaxta qənaət etməkdir. Qeyd edək ki, ümumilikdə, indiyədək mobil ofislər vasitəsilə 2100 məntəqədə 15000 vətəndaşa qeydiyyat xidmətləri göstərilib.

Eyni zamanda kampaniya məlum edir ki, mülkiyyət sənədlərinin dövlət reyestrindən çıxarışlarla əvəz olunması ərazi qeydiyyat idarələrində də aparılır. Kampaniyadan faydalanmaq istəyən vətəndaşlar Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 148 saylı qaynar xəttinə və ya xidmətin müvafiq ərazi idarəsinə müraciət edə bilər.

Kampaniya daşınmaz əmlakla bağlı alqı-satqı proseslərində də müsbət təsirini göstərir, nəticədə daşınmaz əmlak bazarı daha da inkişaf edir. Bu kampaniya əhali arasında etibarlı və zəmanətli mülkiyyət barədə əminliyin yaranmasına böyük dəstək verir. Digər səbəb isə komitə tərəfindən ictimaiyyət arasında geniş maarifləndirmə tədbirlərinin keçirilməsidir. Bu da, ölkə vətəndaşlarının daşınmaz əmlakın qeydiyyatının əhəmiyyətini, eləcə də sosial-iqtisadi faydalarını dərk etməsinə səbəb olmaqdadır.

Kampaniyanın davamlı həyata keçirilməsində məqsəd daşınmaz əmlakın qeydiyyatı sahəsində sosial məmnunluğu artırmaqdır.

Xatırlamaq olar ki, Əmlak Məsələləri Dövlət Komitəsi daşınmaz əmlakın qeydiyyatı sahəsində son illərdə bir sıra uğurlar qazanmışdır. Belə ki, komitə qeydiyyat prosedurlarını sadələşdirmiş və daşınmaz əmlakın təkrar qeydiyyatı ilə bağlı müddətləri qısaltmışdır. Elektron və onlayn xidmətlər istifadəyə verilməsi və ərazi qeydiyyat idarələrində yüksək xidmət şəraitinin yaradılması da qeydiyyat sahəsində şəffaflığın və operativliyin yüksəlməsini təmin etmişdir.

**«Qəbələ».**

**Foto S. Umuyevindir.**

# Məşğulluq və peşə təhsili sahəsində əməkdaşlıq barədə forum keçirilmişdir

Dekabrın 16-da Qəbələdə GİZ-Almaniya Əməkdaşlıq Təşkilatının dəstəyi ilə



Milli Məhsuldarlıq və Rəqabətədavamlılıq Mərkəzi tərəfindən “Məşğulluq və peşə təhsili sahəsində sosial tərəfdaşlıq” mövzusunda Forum keçirilmişdir.

Forumda Qəbələ və İsmayıllı rayonlarından əlaqədar təşkilatların nümayəndələri iştirak etmişlər.

Tədbirdə məşğulluq və peşə təhsili sahəsində təqdimatlar edilmiş, ətraflı müzakirələr aparılmışdır.

**Foto S. Umuyevindir.**

# Qəbələnin ötən il tarixdə qalan izləri

**3 yanvar:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəbələdə rəsmi səfərdə olmuş və «Tufan» Dağ-xizək Yay-qış istirahət kompleksinin birinci mərhələsinin açılışında iştirak etmişdir.

**24 yanvar:** Qəbələ Rayon Məhkəməsi üçün yeni bina tikintisinin təməli qoyulmuşdur.

**7 fevral:** Qəbələ Rayon icra Hakimiyyəti 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına dair iclas keçirmişdir. İclasın iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Müraciət qəbul etmişlər.

**14 fevral:** Qəbələ rayonunun 100 mininci sakini dünyaya gəlmişdir. Bu sakin Mirzəbəyli kəndində yaşayan Samit və Seyran Kərimovlar ailəsinə nəsib olmuşdur.

Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvilinin başçılıq etdiyi nümayəndə heyəti Qəbələyə rəsmi səfərə gəlmişdir.

**4 mart:** Azərbaycan Respublikası və Mədəniyyət Nazirliyi Qəbələni 2014-cü ildə «Azərbaycanın əfsanələr paytaxtı» elan etmişdir.

**12-15 mart:** Qəbələ 2013-cü ildə «MDB ölkələrinin mədəniyyət paytaxtı» elan edilmişdir. Qəbələ Mədəniyyət Mərkəzində MDB ölkələrinin görkəmli mədəniyyət xadimləri və incəsənət ustalarının iştirakı ilə tədbirin bağlanış mərasimi keçirilmişdir.

**2 aprel:** Şəki-Zaqatala iqtisadi rayonuna daxil olan şəhər və rayon icra hakimiyyətlərinin və sahibkarların iştirakı ilə «Ölkə iqtisadiyyatının inkişafında sahibkarlığın rolu: nailiyyətlər və repspektivlər» mövzusunda keçirilən tədbirə Qəbələ ev sahibliyi etmişdir.

**28 aprel:** Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə xidməti Qəbələ Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin 95 nömrəli Yanğından Mühafizə bölməsi fəaliyyətə başlamışdır.

**7-11 may:** Ölkənin daha bir nüfuzlu tədbirinə: «Tour`d Azerbaidjan--2014» vloyürüşinə Qəbələ ev sahibliyi etmişdir. Bu tədbirdə 22 ölkənin velosiped idmançıları iştirak etmişlər.

**20 may:** Avropa Şurasının Baş katibi Torbyom Yaqland və onun başçılıq etdiyi nümayəndə heyəti Avropa Şurası yanında Daimi Nümayəndə Emin Eyyubovun müşayəti ilə Azərbaycana rəsmi səfər çərcivəsində Qəbələdə olmuşdur.

**31 may-1 iyun:** Dünya Xəbər Agentlikləri Şurası Bakı iclasının iştirakçıları Qəbələdə olmuşlar.

**4-5 iyun:** Qəbələdə İqtisadi Əməkdaşlıq Təşkilatının fəlakət riskinin idarə olunması üzrə VII Beynəlxalq konfransı keçirilmişdir.

**7 iyun:** Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan Respublikasının Parlmentlərarası dostluq qrupunun sədri Abdulla bin Məhəmməd Əl-Nasirin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana rəsmi səfəri çərcivəsində Qəbələdə olmuşdur.

**23-24 iyun:** Heydər Əliyev Konqres Mərkəzində «Regionlararası əməkdaşlıq: yeni inkişaf imkanları» mövzusunda Azərbaycan Rusiya Regionlararası forumu keçirilmişdir.

**23 iyul:** Qəbələ VI Beynəlxalq Musiqi Festivalı başlanmış və 10 gün davam etmişdir.

**24 iyul:** Moskva-Qəbələ-Moskva aviareysi açılmışdır.

Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və səlahiyyətli səfiri xanım Haydrun Tempel Qəbələdə olmuşdur.

**15-21 avquçst:** Qəbələ dünyanın tanınmış atıcılarının Beynəlxalq Qran-pri yarışlarına ev sahibliyi etmişdir.

**27 avqust:** Amerika Birləşmiş Ştatlarının (ABŞ) Azərbaycandakı səfirliyinin müvəqqəti işlər üzrə vəkili Derek Hoqan tanışlıq məqsədilə Qəbələdə olmuşdur.

**24 avqust:** II Qəbələ Mürəbbə festivalı keçirilmişdir. Festivalda 21 rayonun mürəbbə bişirən peşəkarları və xalq tətbiqi sənət ustaları, şirniyyatçılar iştirak etmişlər.

**22 sentyabr:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2014-cü ildə ikinci dəfə Qəbələyə rəsmi səfərə gəlmiş və ikinci səfəri zamanı 5 istehsal müəssisəsi və xidmət obyektinin açılışında iştirak etmişdir.

**2-5 oktyabr:** Heydər Əliyev Konqres Mərkəzində Qəbələ Beynəlxalq Gənclər Forumu keçirilmişdir.

**22 oktyabr:** Olimpiya atıcılıq növləri üzrə Dünya Kuboku yarışlarının final mərhələsinin açılış mərasimi olmuş, yarışlara oktyabrın 23-də start verilmişdir.

**5 noyabr:** Azərbaycan Respublikasının Xarici İşlər, Mədəniyyət və Turizm nazirliklərinin təşkilatçılığı ilə respublikamızda fəaliyyət göstərən xarici ölkə səfirliklərinin nümayəndələri tanışlıq məqsədilə Qəbələdə olmuşlar.

**8-9 noyabr:** Dövlət bayrağı və Konstitusiya günü münasibətilə Peyntbol idman növü üzrə respublika çempionatı keçirilib.

**11 noyabr:** «Qafqaz» resort hoteldə Beynəlxalq tolerantlıq gününə həsr olunmuş «Azərbaycan-tolerantlığa nümunə ölkə» mövzusunda regional konfrans keçirilmişdir.

**Hazırladı: N. ATAKİŞİYEV.**